# "Qərbi Azərbaycan İrsi" kitabının I cildinin təqdimatı

## AĞSTAFA

RİH başçısı aparatının inzibati binasında keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra "Qərbi Azərbaycan İrsi" mövzusunda videoçarx nümayiş olunub.



Tədbirdə çıxış edən Ağstafa RİH başçısı Seymur Orucov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tövsiyəsi ilə Qərbi Azərbaycan ərazisində azərbaycanlıların tarixən yaratdıqları dövlətçilik ənənələri, maddi və qeyri-maddi mədəni irsi, məruz qaldıqları tarixi ədalətsizliklər və cinayətlər, itirdikləri maddi-mənəvi sərvətlər haqqında davamlı tədqiqatlar aparılır. Bu istiqamətdə müasir elmi yanaşmalara uyğun yeni fundamental araşdırma - "Qərbi Azərbaycan İrsi" tədqiqatlar seriyası nəşr edilməyə başlanılıb. "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildi seriyanın ilk nəşridir və Azərbaycan, ingilis, rus dillərində çap edilib.

Rayon ağsaqqalı Gülgün Kərimov, Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin Qazax-Ağstafa rayonları üzrə nümayəndəsi Elməddin Əmiraslanov və Ağstafa şəhəri Səadət Şükürova adına 3 nömrəli tam orta ümumtəhsil məktəbinin direktor müavini Şəfəq Heydərli çıxış ediblər. Bildirilib ki, Azərbaycanın qərb hissəsi zaman-zaman bir sıra ermənipərəst ölkələrin birbaşa dəstəyi ilə ermənilərə hədiyyə verilmişdir. Günahsız insanlar zorla ata-baba yurdlarından deportasiya olunmuşlar. Hazırda Ermənistan adlandırılan Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaycanlı yaşamır. Deportasiya prosesi təxminən üç əsrə yaxın müddətdə həyata keçirilmişdir. Əminliklə qeyd olunub ki, Ali Baş Komandan İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində o yerlərin əsl sakinlərinin tezliklə doğma yurdlarına qayıdışı reallaşacaq.

## GÖYGÖL

Göygöl Rayon İcra Hakimiyyəti və Qərbi Azərbaycan İcmasının Göygöl rayon nümayəndəliyinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində keçirilən dəyirmi masada icma üzvləri və ziyalılar iştirak ediblər. Ulu öndər Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri düzülərək, xatirəsi böyük ehtiramla yad olunub. Dəyirmi masada ümummilli lider Heydər Əliyevin və qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra "Qərbi Azərbaycan İrsi" kitabı əsasında hazırlanmış videoçarx tədim olunub.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev vurğulayıb ki, Qərbi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı ermənilər tərəfindən yalnız etnik təmizləmə siyasəti həyata keçirilməyib, eyni zamanda, soydaşlarımıza məxsus maddi-mədəni irs nümunənərinin, qəbiriştanlıqların, məscidlərin, pirlərin, türbələrin yer üzündən tamamilə silinməsinə yönəlmiş vandalizm aktları törədilib. Ulu öndər Heydər Əliyevin məqsədyönlü siyasətinin layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində Qərbi Azərbaycana qayıdış çərçivəsində görülən işlər, atılan addımlar bunu deməyə əsas verir ki, soydaşlarımız tezliklə öz dədə-baba torpaqlarına qayıdacaqlar.



AMEA Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri Cəbi Bəhramov "Qərbi Azərbaycan İrsi" kitabının 3 dildə - Azərbaycan, rus və ingilis dillərində nəşr olunduğunu, tədqiqat zamanı 1890-1991-ci illərdə Rusiya imperiyası və daha sonra Sovet İttifaqının Baş Qərargahı tərəfindən tərtib və nəşr edilən, uzun müddət məxfi saxlanılan müxtəlif ölçülü 250-dən çox topoqrafik xəritədən, ötən əsrə və müasir dövrə aid ABŞ kəşfiyyat peyklərinin təsvirlərindən, Rusiya, Türkiyə, Gürcüstan və Azərbaycan arxivlərində saxlanılan sənədlərdən, Almaniya, ABŞ, Rusiya kitabxanalarındakı mənbələrdən, foto-video materiallardan, Ermənistandan deportasiya edilmiş azərbaycanlıların xatirələrindən istifadə edildiyini bildirib. Kitab Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün qiymətli mənbə hesab edilə bilər.

Qərbi Azərbaycan İcmasının Göygöl rayon nümayəndəsi Hamlet Ömərov və digər çıxış edənlər yüz minlərlə soydaşımızın Prezident cənab İlham Əliyevin əzmi və qətiyyəti ilə təhlükəsiz şəkildə öz doğma torpaqlarına qayıdacaqlarına əminliklərini bildiriblər.

**"Respublika".**

Respublika .- 2025.- 10 iyul (№ 139).- S.6.